# *Köməkçi reproduktiv tibb etikası*

QƏRBİN DÜNYƏVİ VƏ İSLAM BİOETİKASININ MÜQAYİSƏLİ TƏDQİQİ




BİFİ Müxtəsər kitablar seriyası

# KÖMƏKÇİ REPRODUKTİV
# TİBB ETİKASI

•

QƏRBİN DÜNYƏVİ VƏ İSLAM
BİOETİKASININ MÜQAYİSƏLİ TƏDQİQİ

**Şərmin İslam**

INTERNATIONAL INSTITUTE OF ISLAMIC THOUGHT
iiit
Beynəlxalq İslam Fikri İnstitutu

İDRAK
"İdrak" İctimai Birliyi

**Köməkçi reproduktiv tibb etikası: Qərbin dünyəvi və islam bioetikasının müqayisəli tədqiqi (Azeri)**
*Şərmin İslam*
*BİFİ Müxtəsər kitablar seriyası*

© "İdrak" İctimai Birliyi
və Beynəlxalq İslam Fikri İnstitutu
1443 (hicri) / 2022 (miladi)
*Paperback* ISBN: 978-9952-8445-6-6

**Ethics of Assisted Reproductive Medicine: A Comparative Study of Western Secular and Islamic Bioethics (Azeri)**
*Sharmin Islam*
*IIIT Books-in-Brief Series*

© The International Institute of Islamic Thought (IIIT)
1436AH / 2015CE
*Paperback* ISBN: 978-1-56564-673-5
IIIT
P.O. Box 669
Herndon, VA 20172, USA
www.iiit.org

Tərcüməçi: Aydan Salmanova
Redaktor: Fərid Hüseynov
Bədii və texniki tərtibat: Həsən Həsənov
"İdrak" İctimai Birliyi
Azərbaycan, Bakı ş., Mirəli Seyidov 3138,
korpus D, 1-ci mərtəbə
idrak.org.az

Kitab Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin
icazəsi ilə nəşr olunur (DK-52/Q, 1 fevral 2022-ci il)

Bütün hüquqlar qorunur.

## Beynəlxalq İslam Fikri İnstitutu (BİFİ)
## Müxtəsər nəşrlər seriyası

**Beynəlxalq İslam Fikri İnstitutu (BİFİ) öz oxucularına orijinal mətnin əsas məzmununu əks etdirən müxtəsər kitablar seriyası təqdim edir.**

**Bioetika** son illər ərzində əsas tədqiqat sahələrindən birinə çevrilmişdir. Tibdə davamlı inkişaf həyatın necə formalaşdığına dair anlayışlarımızı tədricən dəyişir. Buna görə də, tibb dünyasında genetika və reproduktiv sistemlə əlaqəli yaranan problemləri həll etmək üçün tibbi etikaya ehtiyac hiss olunur.

Texnoloji baxış bucağı tələb edən və tibb mütəxəssislərinin bir-birinə ziddiyyətli fikirləri tibb aləmi üçün böyük əhəmiyyətə malikdir. Əslində, insan həyatının necə formalaşdığını müəyyən edən sahə də “dünyəvi bioetika” adlanır. Dünyəvi bioetika hər birimizi dərindən maraqlandırmaqla yanaşı, cəmiyyətə ciddi təsir göstərə biləcək məsələlərdən də bəhs edir. Bir qadının bacısı üçün daşıyıcı ana olması nə dərəcədə doğrudur? Bəs övlad sahibi ola bilməyən cütlüyün süni mayalandırmadan yararlanması düzgün hesab edilirmi? Bu barədə İslam dini nə deyir?

**Yardımçı reproduktiv tibb etikası müqəddəs** Qurani-Kərim və Sünnədən götürülən İslam dünyagörüşünün dünyəviliyin yaratdığı sərhədləri aşaraq etibarlı və aydın alternativlər irəli sürdüyü iddiasını təsdiqləmək məqsədilə Qərbin və İslamın bioetik modellərini müqayisəli şəkildə təhlil edir. İnsanın klonlaşdırılması, daşıyıcı analıq və süni mayalandırma günümüzün ən çox müzakirə edilən mövzuların-

dan biridir. Müəllif həm dünyəvi Qərbin, həm də İslam modellərinin perspektivlərini və hər iki modelin tibbi problemlərə necə yanaşdığını obyektiv şəkildə analiz edir. Müəllif bu məsələləri müzakirə edərkən, prinsiplərə sadiq qalaraq, “nəyin ən yaxşı olduğuna” qərar verməyə çalışır.

# Birinci fəsil
# **Giriş**

Bu araşdırmanın əsas məqsədi bioetika mövzularında təqdim edilən İslam və Qərb dünyasının perspektivlərinin fəlsəfi əsaslarını araşdırmaq və müzakirə etməkdir. Burada mənim əsas hədəfimi tibbi təcrübədən faydalanarkən etik dəyərlərin də nəzərə almasının vacibliyini göstərmək təşkil edir. Bu səbəbdən, bu əsər Qərb dünyəvi bioetikası ilə İslam hüquq fəlsəfəsini müqayisə edərək onlar arasındakı ziddiyyətlərin müəyyən edilməsinə yönəlib.

Tədqiqat epistemoloji[1] və aksioloji[2] aspektlərə xüsusi istinad etməklə həm Qərb, həm də İslam dünyagörüşlərinin fəlsəfi əsaslarını təqdim etməyə çalışır. Bununla birlikdə, bioetika problemlərini həll etmək üçün təkcə hüquqi aspektləri deyil, həm də bütün konsepsiyanı nəzərə almaq lazımdır. Dəyər nəzəriyyələri də əlavə olaraq inkişaf etdirilməlidir. Buna görə də, hüquqi qaydalar müəyyənləşməzdən əvvəl, bioetika məsələləri araşdırılmalı və biliklərin inkişafı ilə əlaqədar insanın əsas mahiyyəti müzakirə edilməlidir.

Bu cür müqayisəli təhlil yeni bir düşüncə tərzi formalaşdırmaqla yanaşı, yeni fikir və yanaşma tərzi yaradır. Qərb dünyəvi bioetikası həqiqəti, rasional yanaşması və fövqəltəbii bir varlıqdakı inancın rolunu inkar etməsi ilə İslam yanaşmasından

[1] Epistemologiya (bilik, bacarıq və elm) – fəlsəfənin məlumatın təbiəti, əhatəsi və qaynağı ilə maraqlanan bölməsidir.

[2] Aksiologiya – mədəniyyətin *və* fəlsəfənin *bir istiqaməti olaraq insani dəyərləri öyrənən elmdir.*

fərqlənir. Dünyəvi rasionalizmdən fərqli olaraq, İslam bioetikası ilahi vəhyə, müqəddəs nizama, uca Allahdan gələn mənəvi hidayətə və axirət dünyasına əsaslanır.

Bu tədqiqatda qarışıq metodlardan istifadə edilmişdir. Bununla birlikdə, İslam və Qərb dünyəvi perspektivlərinin bioetika mövzusunda baxışlarını və ya təcrübələrini araşdırmaq üçün fenomenoloji üsuldan da istifadə edilmişdir. Bunun əsas səbəbi də fenomenologiyanın cisimlərin və ya fenomenlərin insan şüurunda əks etdirildiyi kimi özünü göstərməsidir. Əslində, bu yanaşma tədqiq olunan məlumatların reallıqlarını daha yaxşı dərk etməyə imkan verir. Məntiqi və tənqidi düşünmə fəlsəfi təşəbbüsün əsas vasitəsidir. Bu səbəbdən əsər metodoloji baxımdan ontologiya[3] və epistemologiyanı da əhatə edir.

Burada əsas müzakirə mövzusu sonsuzluqdur. Sonsuzluq bir il ərzində qorunmadan aktiv cinsi həyat yaşanmasına baxmayaraq hamiləlik prosedurasının baş tutmamasına deyilir. Əlbəttə, övlad sahibi olmaq arzusu təbii və çox güclü instinktidir, amma günümüzdə övlad sahibi ola bilməyən kifayət qədər cütlük var. Bunun digər bir səbəbi isə kişi sonsuzluğudur. Kişi sonsuzluğu kişinin sperma ifraz etməməsi və ya çox az miqdarda ifraz etməsi ilə xarakterizə edilir. Bundan başqa, zəif sperma hərəkətliliyi də kişi sonsuzluğuna səbəb olan əsas faktorlardan hesab edilir. Digər səbəbləri isə yetərsiz miqdarda seminal mayenin olması, spermanı sulandıracaq dərəcədə çox mayenin olması, sperma hərəkətliliyinin, boşalmanın olmaması və ya erkən boşalmanın olması təşkil edir. Bəzən boşalma sidiklə birlikdə də müşahidə edilə bilər.

Qadın sonsuzluğu yumurtalıqda yumurta hüceyrələrinin əmələ gəlməməsi səbəbi ilə meydana gələ bilər. Digər səbəb isə yumurtalıqların hipofiz vəzisindən lazımi hormon dəstəyini görməməsidir. Qadın sonsuzluğuna səbəb olan faktorlara yumurtalıqların olmaması, hormonal pozğunluqlar və şişlər

[3] Ontologiya – varlıq haqqında təlimdir.

daxildir. Yumurta hüceyrələri yetişdikdən sonra endometrioz və ya infeksiyadan yaranan izlər səbəbi ilə atıla bilmir. Yumurta hüceyrələrinin sayca az olması da qadınlarda sonsuzluğa gətirib çıxarır. Bəzən isə yumurtlama baş versə belə, yumurtalıqda sonrakı 14 gün ərzində hormon istehsal edilmir. Qüsurlu fallopiya boruları da sonsuzluğun əsas səbəblərindəndir. Qadının uşaqlığı olmaya bilər. Doğuşda mövcud olan və ya miyom, infeksiya və ya abort nəticəsində meydana gələn anormallıqlar implantasiyanın meydana gəlməsini maneə törədir.

Sonsuzluğun qarşısını almaq üçün bir çox strategiya hazırlanmışdır. Reproduktiv etikada ən mübahisəli mövzulardan biri hamiləliyin asanlaşdırılması üçün yeni texnologiyaların və çağdaş sosial tənzimləmələrin istifadəsidir. İnsan sivilizasiyası bu yeniliklərdən faydalansa da, bir sıra etik məsələlər ortaya atılır. Getdiyimiz istiqamət məlum olmadıqda, etik araşdırma aparmaq lazımdır. Bu yeni icadların insanların xeyrinə olub-olmadığını müzakirə etmək üçün Qərb və İslam bioetikasına nəzər salacağıq. İki yanaşma arasında müqayisə aparacaq və araşdırmamızı dörd vacib və aktual mövzu üzərində quracağıq. Bu mövzulara süni mayalandırma (süni mayalanma), in vitro mayalanma, daşıyıcı (surroqat) analıq və klonlaşdırma daxildir.

## İkinci fəsil
## **Qərb dünyəvi bioetikası**

Bu araşdırmada Qərbə məxsus dünyəvi etika termini XVII əsrdən etibarən birtərəfli şəkildə inkişaf etmiş, etik dəyərlərlə bağlı müəyyən bir Qərb düşüncəsi mənasını ifadə edir. Etika insanlara ziddiyyətli əxlaqi dilemmalarla üzləşdikdə rasional qərar verməyə kömək edir (3). Beləliklə, etikanı "əxlaqın fəlsəfi bir araşdırması" olaraq xarakterizə etmək mümkündür (4). Bu yanaşmalardan ikisi əxlaqi mövqeni müdafiə etmədən əxlaqı təsvir və təhlil edir. Buna görə də bu yanaşmalar normativ hesab

edilmir. Qalan iki yanaşma əxlaqi mövqe tutur və normativdir. Qeyri-normativ yanaşmanın altında ilk növbədə təsviri etika vardır. Təsviri etikanın məqsədi əxlaq haqqında empirik biliklər əldə etməkdir. Meta-etika, etikada "doğru", "öhdəlik", "yaxşı", "fəzilət" və "məsuliyyət" kimi əsas terminlərin mənalarının təhlilini özündə ehtiva edir.

Ümumi normativ etikanın fundamental funksiyası "əxlaqi cəhətdən nəyin düzgün, nəyin səhv olduğu" sualına ümumi cavab verən bir etik nəzəriyyə qurmaqdır. Praktiki normativ etika ümumi normativ etikadan həmişə bir addım irəlidədir. Bu məqsədlə, insanları əhatə edən məsələlər, intihar, cinayət və cəza kimi xüsusi əxlaq problemləri ilə bağlı mövqelərini əsaslandırmaq üçün normativ etika vasitələrdən (nəzəriyyə və prinsiplərdən) istifadə edilir. Praktik hərəkəti müəyyən etmək cəhdi "praktik etika" adlanır. İş etikası və ya mühəndislik etikası kimi, bioetika da disiplinlərarası bir yanaşmaya malikdir və praktiki normativ etikanın, yaxud tətbiq olunan normativ etikanın bir qoludur.

## Bioetika və onun prinsipləri

Bioetika termini mənşəcə yunan sözü olub iki sözün birləşməsindən əmələ gəlib: *"bio"s* və *"ethike"*. *"Bio"s* həyat, *"ethike"* isə etika mənasını daşıyır. Qısaca, bu davranışın əxlaqi dəyərlər və prinsiplər işığında araşdırıldığı müddətcə, həyat elmləri və sağlamlıq sahəsindəki insan davranışının sistematik şəkildə öyrənilməsi kimi qəbul edilə bilər. Bioetika ictimai sağlamlıq, peşə sağlamlığı, beynəlxalq sağlamlıq və əhali nəzarəti etikası ilə əlaqəli geniş sosial problemləri əhatə edir. İnsan həyatı və sağlamlığından daha geniş mövzuları əks etdirir. Məsələn, heyvan təcrübələri, rəqabətli ekoloji iddialarla əlaqədar mövzularda heyvan və bitki həyatına təsir edən problemləri əhatə edir (5).

Digər şəxslərdən fərqli olaraq, bioetik məlumatların əxlaqi əsaslarını etik prinsiplər və nəzəriyyələr əsasında şərh və təhlil etməyə çalışacaq (6). Disiplinlərarası bir araşdırma kimi həyat elmləri ilə bağlı etik məsələlərlə birbaşa öyrəndiyi üçün həmin elmlərlə sıx əlaqəlidir. Bioetikada etik müzakirəyə zəmin yaratmaq üçün üç ümumi əxlaq prinsipi irəli sürülmüşdür. Bunlar azadlıq, xeyirxahlıq və ədalətdir.

Bioetikada azadlıq fərdin hiylə, təzyiq, məhdudiyyət və ya məcburiyyətlə qarşılaşmadan öz qərarlarını müstəqil şəkildə vermək və istəklərini həyata keçirməkdə sərbəst olduğu və şəxsi azadlığa sahib olduğunu ifadə edir. Müstəqillik istəyə bağlı olmalıdır və etik qərar qəbul etməkdə maraqlı şəxs son qərarı verməlidir. Müstəqil qərar qəbul edərkən heç bir xarici təzyiq və ya məhdudiyyət olmamalıdır. Xeyirxahlıq mərhəmət və xeyriyyəçilik əməllərinə aid olan və başqasına fayda verən hər hansı bir hərəkəti ifadə edə bilən bir prinsipdir. Xeyirxahlıq aşağıdakı dörd ünsürü əhatə edir: 1) İnsan pisliyə yol verməməlidir; 2) İnsan pisliyin və ya şər qüvvələrin qarşısını almalıdır; 3) Şər və pis əməlləri aradan qaldırmaq lazımdır; 4) İnsan yaxşılıq etməli və bunu təbliğ etməlidir (7). Ədalət insaf və hüquq anlayışlarına aid edilir. Sağlamlığın qorunmasında ən həssas mövzu qıt resursların ədalətli bölüşdürülməsidir.

## Qərb dünyəvi bioetikası və dünyəvilik anlayışı

Bu bölmədə qısaca dünyəviliyin tarixi və epistemoloji quruluşundan bəhs edilir və Qərbin dünyəvi bioetikasına daxil olan epistemoloji ünsürlər nəzərdən keçirilir. *Dünyəvi* termini latın sözü olan *"saeculum"* sözündən törəyib, zaman və məkan arasındakı ikili əlaqəni ifadə edir. Zaman "indiki" və ya hal-hazırkı hissi, məkan isə "dünya" və ya "dünyəvi" (görünməz) sözlərini əhatə edir. Dünyəvilik "bu dövr" və ya "indiki zaman" mənasını verir. Nəticə etibarilə, bu dünyada çağdaş hadisələri ifadə edir (8).

Dünyəvilik Xristian Avropasının tarixi kontekstində inkişaf etdiyi üçün tez-tez Xristianlıqla əlaqələndirilir. Beləliklə, dünyəvilik Avropanın orta əsr kilsə qayda və fəaliyyətlərindən yaxa qurtarması kimi qəbul edilir. Lakin praktik məqsədlər üçün dünyəvilik, insan düşüncə və yaşamasından Tanrının praktiki olaraq kənarlaşdırılmasını əsaslanır.

Dünyəvi bioetikada dini inanclar əlaqəsiz və lazımsız bir şey hesab edilir. Bioetika öz dövrünün və tarixinin terminidir. Bioetika tarixində dini perspektivlər marginallaşır və əxlaqın dünyəviliyi əxlaqi bir standart olaraq konsensusdan istifadə edərək əsas yer tutur. Müasir Amerika və ingilis analitik filosofları bu istiqamətdə ən qabaqcıl insanlar idi. Bir növ normativ dünyəvi bioetika bir mövzu olaraq ortaya çıxmışdır. Yavaş-yavaş bu düşüncə quruluşa daxil olan alimlər sahənin təbiətini, mövzusunu və metodunu dərindən araşdırmağa başladılar. Qərb bioetikası indi dünyəvi hala gəlmişdir.

Bəs Qərbin dünyəvi bioetikası nədir? Bioetika bədəni mücərrəd anlayışdan xali, maddi qanunlara uyğun işləyən kimyəvi-mexaniki bir maşın kimi görən bir tibb elminə deyilir. Bu modelə əsasən, bəşəriyyət haqqında bilməli olduğumuz hər şeyi bədənin hər bir hissəsini öyrənərək əldə etmək mümkündür. Beləliklə, insan orqanizminin ağıl və ruh kimi incə detalları gözardı edildi, unuduldu, və ya sadəcə dini söhbət kimi sıxışdırılıb ortadan çıxarıldı. Bioetika bəşəriyyətin empirik araşdırmalar xaricində heç bir məlumat mənbəyinə üz tutmadan öz sərhədləri daxilində fəaliyyət göstərə bilən praktik etikanın bir qoludur.

Biotibbin inanılmaz dərəcədə inkişaf etməsi nəticəsində XXI əsrdə ən mübahisəli biomedikal etik problemlərlə üzləşilir. Əsas mübahisə məsələləri insan klonlaması, insan genomu layihəsi və kök hüceyrə təşkil edir. Bu cür məsələlərə görə dini müxalifət özünü göstərməyə başladı. Məsələ aktualdır, ancaq bu həkimlərin qərarına buraxıla bilməz, çünki elm "olab" və etika isə "olmalı olan" ilə bağlıdır və bu, əxlaqi bir mübahisə hesab

olunur. Bioetika, sürətlə inkişaf edən körfəz arasında körpü olmalı və əxlaq qaydalarını düzəltməklə, onların prinsiplərini və nəzəriyyələrini nəzərdən keçirməklə, elmi ictimaiyyət qarşısında tipik fəlsəfə mübahisələrdən qaçmaq əvəzinə mövcud problemləri həll etməlidir.

## Üçüncü fəsil
## **İslam bioetikası**

İslam bioetikası beş əsas komponentdən ibarətdir. İslama qısa tərif versək onda belə deyə bilərik ki, İslam həyatın bütün sahələrində aləmlərin rəbbi olan uca Allahın iradəsinə tabe olmaq deməkdir. İslam, əslində, bir həyat tərzidir. İslamın hədəfi yer kürəsinin sülh, rahatlıq və rifahla təmin edəcək şəkildə həm fərdi həyatı, həm də bütünlükdə cəmiyyəti formalaşdırmaqdır (9). Şəriətin dörd təməli var və onlar belədir: Qurani-Kərim, Sünnə (Məhəmməd Peyğəmbərin (s.a.v)[4] təcrübəsi), üləmaların (alimlərin) fikir birliyi (icma[5]) və qiyas[6]. Haqq-ədalətin yeganə kitabı insan həyatının istənilən mövzusuna bələdçi olan Qurani-Kərimdir.

İslam dininin müqəddəs kitabı olan Qurani-Kərimdə bir müsəlmanın qarşılaşa biləcəyi bütün situasiyalar açıq şəkildə ifadə edilməmişdir. İkinci təməli təşkil edən Sünnə isə izahedici bir hidayət mənbəyidir. Müsəlmanlar fikir birliyi yolu ilə İslam hüquqşünaslarından köməklik istəyir. İslam hüquqşünasları da qiyasa müraciət edirlər. Daha sonra alimlər müsəlmanların üzləşdiyi dilemmalarla daha yaxından maraqlanmaq üçün üsu-

[4] Salləllahu aleyhi və səlləm – s. a. v. qısaltması isə: "Allah ona dayaq olsun və onu əmin-amanlıqda saxlasın.

[5] İcma, Hz.Peyğəmbərin vəfatından sonra hər hansı bir əsrdə İslam hüquqşünaslarının (müctəhidlər) əməli bir məsələnin şəri hökmü haqqında həmfikir olmalarıdır.

[6] Qiyas, Kitab, Sünnə və İcmada hökmü olmayan məsələyə, aralarındakı illət eyniliyi səbəbilə sözügedən mənbələrdən birində mövcud olan məsələnin hökmünü həmin məsələyə verməkdir.

li-fiqh[7] qaydalarına əsaslanaraq hökm çıxarır. Texniki baxımdan, alimlərin fiqh elminə istinad edərək hökm çıxarmasına *"ictihad"*[8], bu ictihadı edən alimə isə "müctəhid" deyilir. Beləliklə, müasir tibbin qarşılaşdığı real həyatı, müasir problemləri və bu məsələlərin etik nəticələrini nəzərə alaraq, İslam bioetikası İslam hüququnun beş əsas komponentindən yaranan fəlsəfi yanaşmaya əsaslanaraq həll yolu tapır.

## Müasir tibdə İslam hüquqşünaslığı

İslam təbabəti öz tibbi qanunlarını aşağıdakı mənbələrdən əldə etmişdir: Qurani-Kərim və hədislər, qiyas, icma, əqli qaynaqlar (*istehsan, istehsab, istirsal* və s.). Bəhs olunan komponentlərin hər birini ayrı-ayrılıqda nəzərdən keçirəcəyik.

*İstehsan*[9] hərfi mənada üstünlük verilmiş bir şeyi düşünmək deməkdir. Hüquqi formada *istehsan* qanunun hərfi tətbiqindən yarana biləcək hər hansı bir sərtliyin və ya ədalətsizliyin qarşısını almaq üçün şəxsi rəyini reallaşdırmaq üsuludur. Haşim Kamali Peyğəmbərin (s.a.v) səhabələr və varislərinin hökmlərinin əsasında şəriətin məqsədini dərindən dərk etmələrinin dayandığını qeyd edir (11). Haşim Kamali belə bir nümunə verir: şifahi ifadələr bir zamanlar İslam qanunlarında standart sübut forması idi. Günümüzdə isə şəkillər, səs yazıları və laboratoriya analizləri bir çox hallarda şifahi sübut formasını əvəz edə biləcək daha etibarlı bir vasitəyə çevrilmişdir. Burada aydın bir *istehsan* üsulu tətbiq olunur (12).

*İstehsab*[10] sözün əsl mənası görüş və ya yoldaşlıq deməkdir. Üsulu fiqhdə *istehsab* faktların varlığını və ya olmamasını təm-

---

[7] Fiqh üsulu, ərəbcə ifadəsi ilə üsuli-fiqh (اصول الفقه), fiqhin əsilləri, kökləri və prinsipləri kimi mənalara gəlir.

[8] İctihal çətin və məşəqqətli bir işi icra etmək üçün cidd-cəhd göstərmək mənasına gəlir.

[9] İstehsan, müctəhidin, bir məsələdə öz qənaətinə görə həmin məsələnin oxşarlarında verdiyi hökmdən imtina etməsini lazım bilən nəss, icma, zərurət, gizli qiyas, adət-ənənə və ya məsləhət kimi bir dəlilə əsaslanaraq, o hökmdən əl götürüb başqa bir hökm verməsidir.

[10] İsteshab, keçmişdə sabit olan bir şeyin, dəyişdiyinə dair bir dəlil olana qədər hal-hazırda da mövcud olduğuna hökm verməkdir.

sil edir. Şəriətin başqa dəlilləri olmadıqda bu formadan istifadə edilir. *İstehsab* bir faktın (məsələn, evlilik və ya mülkiyyət hüququnun təhvil verilməsi) əksi sübut olunana qədər davam edəcəyini göstərir. *İstehsab* dörd növü vardır:

1. ***İstehsab əl-ədəm əl-əsliyyə*** – keçmişdə mövcud olmayan bir faktın mövcud olmadığı ideasını dəstəkləyir.
2. ***İstehsab əl-vücud əl-əsliyyə*** – qanunla və ya hər hansı bir səbəblə göstərilənlərin varlığının qəbul edildiyini bildirir. Məsələn, ər qanuni və ya etibarlı bir evliliyin olması səbəbi ilə öz həyat yoldaşına *mehr* ödəməlidir.
3. ***İstehsab əl-hökm*** – ümumi hüquq qaydalarının, o cümlədən prinsiplərinin davamlılığını nəzərdə tutur. Məsələn, qanunda bir hökm (qadağan edən və ya icazə verən) olduqda bu qanunun davam edəcəyini göstərir.
4. ***İstehsab əl-vəsf*** – bir faktın əksi sübut edilənə qədər əvvəlki qayda ilə hər şeyin davam ediləcəyi deməkdir. Məsələn, suyun təmiz olmadığı sübut edilənədək suya təmiz su kimi baxılmağa davam ediləcək (13).

*"Örf"* hərfi mənada adət-ənənə deməkdir. Şəriətdə "halal" (mübah, [11]icazə verilən) və "haram" (qadağan edilən) ilə bağlı qaydaların təyin edilməsində də müəyyən yer tutur. *Örf* mahiyyət etibarilə yerli və ya milli bir məfhumdur və İslam qanunlarının təfsirində, habelə tətbiqində mühüm rola sahibdir. *Məsalehi-mürsələ*[12] məhdudiyyətsiz ictimai maraqlara aid edilir. *Məsaleh* hərfi mənada mənfəət və ya maraq deməkdir. *Məsalehi-mürsələ* bir fayda təmin etmək və ya zərərin qarşısını almaq məqsədi daşıyır, şəriətin məqsədləri ilə üst-üstə düşərək hüquqşünasların dəyişən dünyada yeni vəziyyətlərlə üzləşməsinə kömək edir.

[11] İslam dininə görə axirət savabının yazılması haqqında heç bir dəlil olmayan bəyənilən əməldir.

[12] Məsalehi-mürsələ, ona əsasən hökmün verilməsi ilə insanlara bir fayda təmin edən və ya onlardan bir zərəri dəf edən, ancaq etibarlı və ya etibarsızlığına dair hər hansı dəlil olmayan mənalardır.

Bundan əlavə, bir səhabənin fitvaları da İslam hüquqşünasları üçün olduqca əhəmiyyətlidir. Səhabənin fitvası səhabənin ictihad yolu ilə anladığı bir fikirdir. İslam hüquqşünasların qəbul etdikləri ümumi bir prinsip də belədir ki, zərərin qarşısının alınması bir fayda əldə etməkdən qat-qat üstündür. Belə ki, Sünnədə *səddi-zərai*[13] (şər işlərə aparan yolların qarşısının alınması) deyə bir anlayış var. *Sədd* bloklamaq, qarşısını almaq deməkdir, *zərai* isə zərər, şər deməkdir. *Üsuli-fiqhdə* şər işlərin, zərərə aparan yolların qarşısını kəsmək mənası daşıyır. Misal üçün, Peyğəmbər (s.a.v) münafiqlərin öldürülməsini (camaat arasında fikir ayrılığına səbəb ola biləcəyinə və şübhə əsasında haqsız öldürülməsinə səbəb ola biləcəyini) qadağan etmişdir.

## Müasir tibb dövründə islam qanunlarının öz əksini tapması (hicri təqvimi ilə 1420-ci il)

Qanunun məqsədləri (məqasid aş-şəriət) nəzəriyyəsi sağlam və ardıcıl hüquqi qərarlar çıxarmağa xidmət edir. Şəriətin məqsədləri və ya İslam hüququnun ali məqsədləri aşağıda göstərilənlərin mühafizəsinə həsr edilir: *hifz əd-din* (dinin qorunması); *hifz əl-nəfs* (nəfsin qorunması); *hifz ən-nəsl* (nəslin qorunması); *hifz əl-əql* (ağlın qorunması); və *hifz əl-mal* (mülkün qorunması).

Tibb sahəsindəki *hifz əd-din* sağlamlığın qorunmasına xidmət edir. Burada sağlamlıq dedikdə həm fiziki, həm də ruhi sağlamlıq nəzərdə tutulur. *Hifz ən-nəfsə* gəldikdə isə həm doğuş, həm də ölüm aləmlərin rəbbi olan Uca Allahın əlindədir. İnsan oğlu ömür etdiyi müddət boyunca yaxşı bir həyat yaşamağa layiqdir. Bunun da mahiyyətində hər bir insan üçün yaxşı bir həyatı təmin edən tibb dayanır. Həyat müqəddəsdir və Qurani-Kərim onun müqəddəsliyinə xüsusi vurğu edir. Bu səbəbdən İslam tibb etikasının ilk prinsipi həyatı qorumaqdır.

---

[13] Səddi-zərai, məfsədətə (fəsada) aparan yolların və ya hər cür vasitənin qadağan olunması deməkdir. Bunun əksinə yaxşılığa aparan yolların qabağının açılmasına isə fəthi-zərai deyilir.

Tibb uşaqların sağlamlığı üçün də çalışır. Bütün bunları nəzərə alaraq demək olar ki, nəsillərin qorunması (*hifz ən-nəsl*) tibbdə böyük bir əhəmiyyət kəsb edir. Uşağın sağlam şəkildə dünyaya gəlməsi üçün hamilə qadınlara qulluq, prenatal tibb və pediatriya əsas şərtlərdən hesab edilir. Sağlam yetkinlik, nəsil artırma və insan həyatının davam etməsi üçün sağlamlıq olduqca vacibdir. İslam insanları nəsil artırmaya təşviq etdiyi üçün sonsuzluğun müalicəsinə də müsbət yanaşır.

Tibbi etika ilə əlaqədar olaraq ağılın qorunması (*hifz əl-əql*) hər hansı bir fiziki və ya ruhi xəstəliyin müalicəsinin zəruriliyini ifadə edir. Bir xəstəlikdən sağalmaq, şübhəsiz ki, insana zehni sakitlik gətirir. Beşincisi, sərvətin qorunması (*hifz əl-mal*) sağlam vətəndaşlarının məhsuldar fəaliyyətindən asılı olan hər hansı bir cəmiyyətin sərvətini və ya mal-mülkünü xarakterizə edir. Tibdə xəstəliyin qarşısının alınması, sağlamlığın təmin edilməsi və xəstəliyin müalicəsi üçün hər cür şərait yaradılır. Şəriətin qaydaları və prinsipləri üç kateqoriyadan birinə aid edilir: (a) *zəruriyyat*[14], (b) *haciyyat*[15] (c) *təhsiniyyat*[16]. Yuxarıda sadalanan beş maddə *zəruriyyat* kateqoriyasına daxildir.

## Münaqişə halları ilə bağlı qaydalar

Qanunlar ziddiyyətli halları nəzərdən keçirmək və düşünmək üçün istifadə olunur, çünki real həyatda müəyyən məsələlərlə əlaqəli ziddiyyətlər yaşana bilər. Birinci əsas prinsip niyyətdir. Ona görə ki, məsələlər məqsədlərinə uyğun olaraq nəzərə alınmalıdır. Bütün işlər arxasındakı niyyətə görə bəlli olur. Məsələn, niyyət həkimi öz daxili vicdanı ilə məsləhətləşməyə səsləyir. Daha yaxşı başa düşmək üçün bir nümunə də göstərək. Bildiyimiz kimi morfin ölümlə nəticələnə biləcək tənəffüs xəstəliklərinə səbəb ola bilir, ancaq yaxşı niyyətlə onu ağrı kəsici kimi istifadə edirlər.

[14] Zəruriyyat, cəmiyyətin varlığını qoruya bilməsi üçün qaçılmaz dəyərlər mənasına gəlir.

[15] Haciyyat, insanların həyatını asanlaşdırmaq və əziyyətsiz həyat sürmələri üçün möhtac olduqları nizam-intizamların cəmi deməkdir.

[16] Təhsiniyyat və ya kamaliyyat, yüksək əxlaq və gözəl davranış kimi keyfiyyətlərə malik olmaq üçün lazımi şeylər deməkdir.

İkinci prinsip də budur ki, vacib olan niyyətdir. İkinci dərəcəli prinsip həm də əxlaqsız hərəkətləri haqlı çıxarmaq üçün hüquqi dəlillərin istifadəsini təkzib etmək məqsədi ilə istifadə olunur. Buna misal olaraq embrioloji inkişafa dair hədisi nümunə gətirməklə aborta haqq qazandırılmasını göstərmək olar. Üçüncü alt prinsip zərərin də niyyət kimi eyni meyarlarla qiymətləndirilməsidir. Burada nəzərdə tutulan odur ki, əxlaqsız metodlardan istifadə etməklə heç bir faydalı tibbi məqsədə çatmaq olmaz. Dördüncüsü, şübhəli görünən yolların qarşısını almaq daha yaxşıdır. Bu prinsip, uzun müddət davam edən anomaliyalar[17] və ya heç bir narahatlığa səbəb olmadığı görünən deformasiyalara lazımsız tibbi müdaxilələrdən qoruyur. Beşinci prinsip icazə ilə bağlıdır. Bütün tibbi prosedurlar əksi sübut edilənə qədər məqbul sayılır. Altıncısı, icazəli olduğunu sübut edən dəlil çatışmayan qədər cinsi funksiya ilə əlaqəli bütün məsələlər qadağan olunmuş sayılır.

İkinci əsas prinsip zərər verməməkdir. Bu prinsip "İslamda zərər vermək və zərərə zərərlə qarşılıq vermək də yoxdur" (lə zərərə və lə zirar fil-islam) hədisindən götürülmüşdür. Zərər verməmək və ya zərərlə nəticələnə biləcək yolların aradan qaldırılması üçün həkim iş əsnasında xəstəyə zərər verməməlidir. Yaralanmanın mümkün olduğu qədər qarşısının alınması və ya dəyən ziyanın azaldılması əsas məsələlərdən biridir. Üçüncü alt prinsipə əsasən ictimai ziyanı dəf etmək üçün şəxsi ziyana üstünlük verilməsidir. İkinci alt prinsipdə olduğu kimi, tibbi müdaxilə zamanı hər hansı bir zədələnmə baş verərsə, onu aradan qaldırmaq lazımdır.

Dördüncüsü, zərərin və ya ziyana aparan yolların qarşısının alınması mənfəət əldə etməkdən daha üstün hesab edilir. Amma əldə ediləcək fayda dəyəcək zərərdən çox böyükdürsə və həyati dəyər daşıyırsa, onda faydanın arxasınca getmək məqbuldur. Beşincisi – daha böyük zərərin qarşısını almaq

[17] Normadan, ümumi qanunauyğunluqdan kənara çıxma.

üçün daha az zərər verilə bilər. Əgər bir gün hər iki yolun da zərərlə nəticələnəcəyi tibbi bir situasiya ilə üzləşsəniz və onlardan birini seçməkdən başqa bir çıxış yolunuz olmazsa, daha az zərər verən yolun seçilməsi düzgündür. Məsələn, yoluxucu xəstəliklərlə mübarizədə dövlət bir vətəndaşın hərəkətini məhdudlaşdırmalı və ya onun şəxsi əmlakını məhv etməli ola bilər. Altıncı – zərərin qarşısının alınması vacibdir. Lakin daha böyük zərər verən tibbi prosedurdan yaralanma da gözardı edilməməlidir. Yeddinci – fərd ictimai mənafeyi qorumaq üçün ziyana aparan yolu seçə bilər. İctimai mənafeyə xidmət edən tibbi müdaxilələr fərdi maraqların nəzərə alınmasından daha üstündür. Buna görə də, ictimai mənfəət olmadığı təqdirdə, dövlət ictimaiyyətin hüquqlarını poza bilməz.

Üçüncü əsas prinsip əminlikdir. Açıq-aydın ifadə edilən qadağalar olmadığı təqdirdə bütün əməllərə icazə verilir (14). Bəs, qayda olmadıqda nə edilməlidir? Tibdə hər şey ehtimal əsasında təşkil olunur. Müalicə qərarları ehtimal balansına əsaslanır. Bu prinsip, uzun müddət davam edən anomaliyalarda və ya deformasiyalarda heç bir narahatlığa səbəb olmayan görünməyən tibbi müdaxilələrdən qoruyur.

Dördüncü əsas prinsip isə şiddətli əzab ilə bağlıdır. Tibbi şəraitdə şiddətli əzab, dərhal aradan qaldırılmasa fiziki və zehni sağlamlığı ciddi şəkildə pozacaq hər bir vəziyyətdir. Əzab bütün şəriət qaydalarını və öhdəliklərini azaldır. Digər tərəfdən əzab yüngülləşmə gətirir. Çətinliyin olması rahatlığın yaranmasına rəvac verir. Bu prinsip İslam hüququnun çətinlik yaratmaq deyil, asanlaşdırmaq xüsusiyyətini əks etdirir. Bu səbəbdən, zərurət yarandığı təqdirdə, həmin prinsipi əsas götürərək başqa halda qadağan edilən hərəkətlərə icazə verilir. Çətinliyin üçüncü alt prinsipi olaraq, zərurət qadağanı aradan qaldırır. Əsl çətinlik zərurət hesab olunur. Hər hansı çətinliklər ortaya çıxdıqda, qanun məsələləri asanlaşdırmaq üçün müddəalar verilir. Bu cür tədbirlərin görülməsinin əsas şərti çətinliklərin xəyal

deyil, real olmasıdır. Məsələn, çətinlik prinsipi altında gizlənən sirlər zərurət üzündən açıla bilər. Məhkəmə çəkişmələrində haqsızlığı müdafiə edən cinayət işlərində ifadə verə bilər.

Beşinci əsas prinsipə adət-ənənədir. Ümumi qəbul edilmiş tibbi xidmət standartı ənənəvi baxımdan təsdiqlənir. Adət vahid, geniş yayılmış və üstünlük təşkil edən məsələdir. Tibbi konsensusun yaranması üçün adət köhnə olmalıdır. Onun yeni bir fenomen olması qəbuledilməzdir. Bioetikanın aktuallığı budur ki, İslam bu hüquqlara nail olmaq üçün təkcə hüquqi təminatlar deyil, eyni zamanda çox dinamik və təsirli bir əxlaq kodeksi də yazmışdır. Ədalət, dürüstlük, etibarlılıq və doğruluq kimi etik dəyərlər, heç vaxt fəlsəfi baxımdan araşdırılmır, baxmayaraq ki, onlar praktik cəhətdən sapmalara məruz qalır, yaxud praktik baxımdan fərqli təzahür edir. İslam bioetikası İslamın hüquqi ölçüsünün bir parçasıdır.

## Dördüncü fəsil
## **Qərbin dünyəvi bioetikası ilə İslam bioetikası arasındakı fəlsəfi əlaqə**

Fəlsəfə mahiyyət etibarilə üç sual əsasında meydana gəlmişdir: Həqiqət nədir? Düzgün olan nədir? Yaxşı olan nədir? Birincisi ontologiyaya, yəni reallığın və varlığın öyrənilməsinə aid edilir. İkincisi epistemologiyaya aid olub bu sualları özündə ehtiva edir. Biz haradan bilirik? Nəyinsə doğru və ya yanlış olduğunu necə bilək? Biliyin şərtləri və məhdudiyyətləri nələrdir? Üçüncüsü isə aksiologiyaya, yəni etika və estetikaya aid edilir. Bu fəsildə ontologiya, epistemologiya və aksiologiyanın bioetikanın həm dünyəvi, həm də İslam perspektivləri ilə əlaqəsi barədə müzakirə aparacağıq.

### Ontologiya

Qərbin dünyəvi fəlsəfəsi həqiqəti real dünya ilə məhdudlaşdırır. Buna görə də maddi dünya yeganə reallıq kimi qəbul edilir.

Halbuki dünya müstəqil, əbədi bir kainat olub müəyyən qanunauyğunluqla inkişaf edən və öz-özünü təmin edən bir sistemdir. Bu da o deməkdir ki, dünyəvilik müqəddəslik hissini müasir və postmodern (Qərb) varlıq anlayışından uzaqlaşdırır. Biologiya digər elmlər kimi, kainatın əsas elementinin maddə olduğunu, həm fiziki, həm də kimyəvi xassələri baxımından tədqiq edilə bilməsi anlayışını fəlsəfədən əxz etmişdir.

İslam ontologiyası Qərb fəlsəfi ontologiyasından köklü şəkildə fərqlənir ki, buna da səbəb bütün kainatın yalnız bir Yaradanı olduğunu qəbul etməsidir. İslam ontologiyası aləmlərin rəbbi olan tək bir Allahı ən son həqiqət, o cümlədən xarici aləmdəki bütün varlıqlarla müqayisədə üstün tutur. İslam ontologiyasında tək bir olan Allaha ibadət edilir. Bununla da, sirli bir xarici aləmin olduğu reallığı öz təsdiqini tapır. Yəni, biz yalnız dünyanın görünən hissəsini yaşayırıq. Kainatın görünməyən və bilinməyən sirləri yalnız Allahın peyğəmbərlərinə aşkar edilir. Açıqlanan sirlər bəşəriyyətin yaşadığı təcrübələrə uyğun şəkildə təfsir olunur (15). Bəşər övladına ruh və fiziki bir varlıq bəxş edilmişdir.

Müsəlman filosoflara əsasən tibdə insan orqanizmi mexanizm baxımından deyil, orqanizmə əsasən öyrənilməlidir. Sual oluna bilər ki, bəs insan nədir? İnsan nə bir maşın, nə bir fabrik, nə bir hiss-arzu kompleksi, nə də ki hərəkət modudur. Bəşər övladı bundan daha artıqdır. Çünki bəşər övladı yuxarıda sadalanan bütün aspektləri əhatə edir. Bəşər övladı mexanizm və orqanizmə sahib, maddə və şüurdan ibarət mürəkkəb və sirli bir varlıqdır.

Bundan başqa, İslam metafizikası kainatın müəyyən məqsədə xidmət etdiyini deyir. Əgər insan oğlu düzgün düşüncə tərzinə sahib olsa, dünyanın daha ali bir məqsəd uğrunda mübarizə apardığına şahidlik edər. İslam əxlaqında dəyərlər həqiqətdən qaynaqlanır. Dünyada baş verən bütün hadisələr sanki bu məqsədin həqiqətə çevrilməsinə istiqamətlənib.

### Epistemologiya

Epistemologiya biliyin mahiyyətini, sərhədlərini və etibarlılığını öyrənir. Daha çox "Bunda həqiqət varmı?" "Mən nə bilə bilərəm?" və "Mən necə öyrənə bilərəm?" kimi suallar ortaya qoyur. Lakin elmi inqilabın inkişafı və materialist, insan mərkəzli dünya konsepsiyasının ideoloji tərəqqisi ilə müqəddəslik hissi müasir və postmodern (Qərb dünyəvi) bilik anlayışında qəbul edilməzdir. Başqa sözlə, vəhy və din tamamilə rədd edilir.

İslam epistemologiyasında mütləq elm yalnız tək bir olan uca Allaha məxsusdur. Görünən aləmin mahiyyəti nədir və onun qeybi bilməklə əlaqəsi nədir? İnsan ağlı görünməyənləri tam şəkildə bilməyə qadirdirmi? Epistemoloji baxımdan uca Allah insanlara qəlb və idrak bəxş etmişdir. Beləliklə, insanoğlu üç bilik səviyyəsinə sahibdir: 1) Hissi qavrayış – görmə, eşitmə, qoxu kimi hisslərdən ibarət olub göz, qulaq və digər bədən üzvləri vasitəsilə əldə edilir; 2) Rasional qavrayış – idrak, mülahizə və bəsirət və s. vasitəsi ilə baş verən və ağıl vasitəsilə qəbul edilənlərdir; və 3) Mənəvi qavrayış – intuisiya, ağıl və ilham vasitəsi ilə əlaqəli olub qəlblə qəbul edilir. Deməli, İslam epistemologiyası Qərbdəki analoqundan fərqli olaraq yalnız empirist və rasionalist deyildir.

### Aksiologiya

Aksiologiya insani dəyərlər elmi olub etika və estetikanı öyrənir. Etika nəyin yaxşı, nəyin pis olması ilə əlaqədardır. Qərb dünyəvi bioetikasında dəyərlər şəxsi və ya kollektiv olub-olmamasından asılı olmayaraq insan maraqları kimi qəbul edilir. Xarici dünya onlar üçün əhəmiyyət kəsb etmir və subyektiv-obyektiv fərqləri yaranır. Qərb dünyəvi bioetikası dəyərləri insan müşahidələrinə və təcrübələrinə nisbətdə insan fenomeni kimi qəbul edir. Bundan başqa, dəyərlərin fövqəltəbii mənşəyi yoxdur və heç vaxt ülvi bir varlığın iradəsi ilə qorunub həyata keçirilmir.

Bunun əksinə olaraq, İslam əxlaqı müqəddəs Qurani-Kərimdə, peyğəmbərlərin adət-ənənəsində və insan düşüncəsindəki dəqiq müəyyən edilmiş prinsiplərə əsasən nəyin etik cəhətdən yaxşı və nəyin pis olduğuna dair aydın və mötəbər dəyər mənbəyi təqdim edir. Bu prinsiplər bilavasitə məlum biliklərdən irəli gəlir. İslam prinsiplərindən istifadə edən insan hərəkətinin hüquqi dəyəri aşağıdakı kimi təsnif edilir: a) mubah – məcburi, təqdirəlayiq, iyrənc və ya qadağa kimi göstərilməyən istənilən hərəkət; b) müstəhəb – təqdirəlayiq/tövsiyə olunan, lakin buna baxmayaraq vacib olmayan; c) fərz – vacib olan; ç) məkruh – iyrənc hesab edilən, lakin haram olmayan bir əməl e) haram – müsəlman üçün tamamilə qadağan olunmuş əməllər.

## Beşinci fəsil
## **Qərb dünyəvi və İslam bioetikasında süni mayalanma: müqayisəli təhlil**

Süni mayalanma spermanın mexaniki üsullarla qadın reproduktiv sisteminə yerləşdirildiyi və qadının uşaqlığına cinsi boşalmanın qarşısını alan bir üsuldur (16). Süni mayalanma ilə bağlı üç əsas məqam var: (a) süni mayalanma cinsi əlaqədən daha çox mexaniki üsullarla spermanın qadın reproduktiv sisteminə yerləşdirildiyi bir texnikadır; (b) kişi qadının uşaqlığına boşalmır; və (c) sperma bir alətlə qadın reproduktiv sisteminə yerləşdirilir.

Prosedurda istifadə edilən sperma mənbəyindən asılı olaraq iki növ süni mayalanma mövcuddur: Homoloji süni mayalanma və heteroloji/donor süni mayalanma. Homoloji süni mayalanmada sperma həyat yoldaşından alınır. Lakin bu o demək deyil ki, mütləq şəkildə şəxs qadının həyat yoldaşı olmalıdır. Yəni, qanuni nikah bu prosedurda ciddi bir tələb deyil. Bu prosedurda kişi yalnız ərin funksional ekvivalenti olmalıdır (17). Donor

süni mayalanmada isə kişidə (ər) sonsuzluq olduqda başqa donorun spermasından istifadə edilir. Adədən kişi sperma sayı məhdud olduqda və ya ümumiyyətlə heç olmadıqda donor süni mayalanma pasientə tövsiyə edilir.

Şəriətdə isə süni mayalanma aşağıdakı şərtlər altında məqbuldur: (a) qanuni evli cütlük arasında olmalıdır; və (b) boşandıqdan sonra məqbul hesab edilmir. Avropa Fitva və Tədqiqat Şurası bildirir: "Qadın boşanmadıqca və ya əri ölmədikcə ərinin spermasından mayalanma üçün istifadə edə bilər" (18). Süni mayalanmanın qanuni şəkildə nikaha girən cütlüklər arasında olması fikri İslamda cinsi əlaqənin ancaq evli cütlüklər arasında ola biləcəyi qanuna əsaslanır. Ancaq qadının uşaqlığına köçürülən spermanın ərinki olduğuna tam şəkildə zəmanət verilməlidir. İslamda donor yumurta və ya donor spermindən istifadə qadağandır, çünki bu, İslamda nəslin məhv edilməsi deməkdir. Bu əməl zinaya bənzəyir.

Qərbin dünyəvi kontekstində isə süni mayalanma ilə bağlı etik məsələlərin əksəriyyəti homoloji süni mayalanma ilə deyil, donor süni mayalanma ilə bağlıdır. Belə ki, ölümdən sonrakı sperma alınmasından başqa, əxlaqi mübahisələrin əksəriyyəti də elə məhz donor süni mayalanma ilə bağlıdır. Alimlərin əksəriyyəti masturbasiyanı haram elan etmişlər (19), lakin qanuni evli cütlüklər arasında süni mayalanma məqsədi ilə sperma toplamaq üçün masturbasiya edilməsinə icazə verilir.

Qərbin dünyəvi fəlsəfi kontekstində, donor süni mayalanmanın istifadəsi ilə bağlı etik mühakimələr daha çoxdur. Bu mühakimələr etik ölçüdə həm müsbət, həm də mənfidir. Belə ki, süni mayalanma övladlığa götürmə alternativinə görə müəyyən potensial psixoloji faydaya sahib olduğu iddia edilir, çünki həm ər, həm də arvad hamiləlik müddətində ilk günlərdən başlayaraq doğuş təcrübəsini və körpənin həyatının ilk günləri-

ni birlikdə yaşaya bilərlər. İslam nöqteyi-nəzərindən, süni mayalanma ağır bir cinayət olmasa da, yenə də mənəvi cəhətdən yanlış və qadağandır.

Qərb dünyəvi bioetikasında etikistlər donor süni mayalanmada selektiv yetişdirmə riski ilə bağlı narahatlıq hissi duyurlar. Çünki bəzən valideynlərin seçimlərinə əsasən həkim və klinikalar “mükəmməl” uşaq yaratmaq üçün ananı dahi, yaraşıqlı, sperma donoru ilə uyğunlaşdırmağa cəhd edirlər. Bunun qaranlıq tərəfi dünyanı idarə edəcək bir ali irqi yaratmaq üçün eugenik hərəkatına aid edilir. Bu və digər etik çətinliklərdən yan keçmək üçün bəzən övladlığa götürmənin donor süni mayalanmadan daha yaxşı həll yolu olacağı iddia edilir.

Başqa bir etik sual isə subay qadınların, evlənməmiş heteroseksual cütlüklərin və ya eyni cinsli cütlüklərin donor süni mayalanmadan istifadə edib-etməməsi ilə əlaqədar ortaya çıxır. Qərb dünyəvi bioetikləri donor süni mayalanmadan istifadə edən subay bir qadınla heç bir etik problem yaşaya bilməz. Homoseksualların və ya subayların in vitro fertilizasiya, süni mayalanma və ya övladlığa götürülməsi üçün namizəd olmalarına icazə verməmək, bu cür insanları həyatda yararsız adlandırmaqdır. Homoseksualların və ya tək valideynlərin pis valideynlər olduğunu düşünmək üçün heç bir səbəb yoxdur. Halbuki, İslam etikası homoseksualların süni mayalanma ilə çoxalma hüququ ilə bağlı əks fikirdədir.

Ölümdən sonrakı anlayış çoxlu sayda etik və sosial problemləri ortaya çıxarır. Yəni, ölümündən əvvəl bu məqsədlə könüllü olaraq dondurulmuş və ya ölən şəxsin spermindən istifadə edərək hamilə qalmasına kömək etmək qərarı, gələcək körpənin rifahını nəzərə almalıdır. Fərqli hökumətlərin fərqli qanunları var və buna görə də Qərb fəlsəfi düşüncəsində ölümdən sonra sperma alınmasının qəbul edilməsi ilə bağlı fikir ayrılığı yaşanır. Bunun əksinə olaraq, İslam etikası ölümündən sonra sperma alınması ilə bağlı açıq şəkildə mənfi fikirdədir. İslam

etikasında evlilik, boşanma və ya ölümdən sonra etibarsız sayılan həyat yoldaşları arasında qanuni bir müqavilə olaraq görülür. Buna görə də, ölən ərin razılığı olsa belə, uşaq dünyaya gətirmək üçün sperma alınması nikah müqaviləsinin pozulması həm əxlaqi, həm də hüquqi cəhətdən əxlaqsızlıq hesab edilir.

## Altıncı Fəsil
## **İn vitro mayalanma: Qərb dünyəvi və İslam bioetikası perspektivləri**

In vitro latın sözü olub mənası "şüşədə" deməkdir. Embriologiyada "uşaqlıqdan kənarda" mənasına gəlir. Normalda insanın mayalanması uşaqlıqda, daha dəqiq desək, fallopiya borularında baş verir. İn vitro mayalanma dedikdə isə süni şəkildə bir test borusunda, yəni qadının bədənindən kənarda həyata keçirilən mayalandırma üsulu nəzərdə tutulur (20). İn vitro mayalanmanın aparılmasının əsas səbəbi normal hamiləlik üçün funksiyaları qeyri-kafi, sağlam olmayan, zədələnmiş və ya tıxanmış borulu qadınların uşaq dünyasına gətirməsinə kömək etməkdir. Bir qadının fallopiya boruları tıxanıqlı olarsa, yumurta uşaqlığa gedə bilməz. Əslində, in vitro mayalanmanın motivi spermanı yumurta ilə in vitro təmasda tutaraq boru funksiyasını əvəz etmək və sonra embrionu uşaqlığa köçürməkdir. Spermanın sayı, hərəkəti və ya quruluşu anormal hesab edildikdə, kişi sonsuzluğu da in vitro mayalanmada bir amil kimi çıxış edə bilər.

### İn vitro mayalanma: İslam bioetikasının perspektivləri

Şəriət bizə bu mövzuda İslam perspektivini anlamağa kömək edir. Nəsil və soyun qorunması zərurəti (*hifz ən-nəsl*) baxımından, İslam bioetikası qanuni olaraq evlənmiş bir cütlük üçün in vitro mayalanmaya müsbət münasibət bəsləyir. İslam Konfransı Təşkilatının (İKT) Qətnaməsinə əsasən, zəruri hallarda bütün lazımi tədbirlərin görülməsi şərti ilə aşağıdakı üsullara

icazə verilir: 1) Qadın yumurtasının ərinin sperması ilə in vitro mayalanması və mayalanmış yumurtanın həmin qadının bətnində implantasiyası; və 2) Canlı mayalanma üçün ərin spermasının götürülməsi və arvadının bətnində və ya uşaqlığının müvafiq yerinə vurulması yolu ilə xaricdən mayalanma (21). Sperma və döllənmiş yumurtanı dondurmaqda və qorumaqda heç bir günah yoxdur, bu şərtlə ki, a) donorun sperması ilə digər donorların spermasının qarışmamasının təmin edilməsi üçün ciddi addımlar atılsın və b) sperma yalnız donorun öz həyat yoldaşının hamilə qalması üçün istifadə olunsun (həyat yoldaşının razılığı ilə).

Nəslin qorunması zərurəti baxımından (*hifz ən-nəsl*), sperma ilə in vitro mayalanma İslamda qəti qadağandır, çünki uşaqlar yalnız ər-arvadın birləşməsindən dünyaya gələ bilər. Ümumiyyətlə, in vitro mayalanmada aşağıdakı şərtlərə riayət edilməlidir: 1) Yalnız ər və arvadın nikah müddətində müalicəsi həyata keçirilməlidir 2) Sperma və yumurtanın birləşməsi ər öldükdən və ya boşandıqdan sonra olmamalıdır. 3) Sperma və yumurtanın birləşməsi yalnız nikah müqaviləsi çərçivəsində baş verməlidir. 4) Hər hansı bir donorun sperma bağışlaması qadağandır. 5) Boşanmış qadına keçmiş ərinin spermasından istifadə etməsinə icazə verilmir. 6) Dul qadının ərinin ölümündən sonra sperma almasına icazə verilmir. 7) Qadın ərinin donmuş spermasını yalnız ikisi də sağ ikən istifadə edə bilər. 8) Evlənmədən əvvəl donmuş sperma istifadə etməyə icazə verilmir.

Nəfsin qorunmasına (*hifz ən-nəfs*) gəldikdə, həyatı pozan və təbii nizamda xaos yaradan hər şey İslam əxlaqında qadağandır. Tədqiqatla embrionların yaradılması da qadağan edilməlidir. Təkcə tədqiqat məqsədləri üçün insan embrionlarının yaradılması bizim konsensusumuzu qane etmir. Bununla birlikdə, İslam etikası artıq döllənmiş yumurtanı məhv etməkdə heç bir problemlə qarşılaşmır. Bu prosedur abort sayılmır, çünki abort yalnız ana bətnində mayalanmış yumurtanın implantasiyasından sonra baş verir. Ən əsası isə abort laboratoriya şəraitində

sınaq borusunda deyil, qadının bədənində baş verir. İƏT-in Qətnaməsində deyilir ki, əgər əlavə mayalanmış yumurta hüceyrəsi varsa, onun həyatı təbii şəkildə başa çatana qədər tibbi müdaxilə edilməməlidir (22). Bundan əlavə, embrionlar tədqiqat məqsədi üçün istifadə edilə bilər, çünki artıq döllənmiş embrionlara əsaslanan araşdırmalar, ictihad, Məsalihi-mürsələ (ictimai maraqların mülahizələri) prinsiplərinə əsaslanaraq insanlığa fayda verə bilər.

Ağılın qorunması (*hifz əl-əql*) ilə əlaqədar olaraq, in vitro mayalanma zehni məmnunluq tələbini yerinə yetirməlidir. Əgər in vitro mayalanma onların zehni rahatlığına səbəb olursa, nə üçün cütlüklər buna cəhd etməməlidir? Sərvətin qorunması (*hifz əl-mal*) ilə əlaqədar olaraq, in vitro mayalanma müalicəsi istəyən bir cütlük gələcəkdə heç bir mənfi vəziyyətlə üzləşməmək üçün maliyyə imkanlarını nəzərə almalıdır. İnancın qorunması (*hifz ad-din*) ilə əlaqədar olaraq, prosedur dinlə ziddiyyət təşkil etməməlidir.

**İn vitro mayalanma: İslam bioetikasının perspektivləri**

Görüşlər bəzən üst-üstə düşsə də, Qərbin dünyəvi bioetikası ilə İslam bioetikası çox vaxt in vitro mayalanma ilə müqayisədə xeyli fərqlənir. Məsələn, Qərb dünyəvi bioetikası in vitro mayalanmada donor sperma və yumurta istifadəsini təsdiqləyib. İslam bioetikasına gəldikdə isə buradakı vacib məsələ nəsil problemi ilə əlaqədardır. Qərb dünyəvi bioetikası lezbiyanlara köməkçi reproduktiv tibb haqqını vermək niyyətindədir. Halbuki İslam bioetikası bunu rədd edir və yalnız qadınların reproduktiv təbabətlə məşğul olmasını qadağan edir. Qeyd edildiyi kimi, İslam dini boşanmadan sonra sperma və yumurtadan istifadə etməyi qadağan edir, Qərbin dünyəvi bioetikası isə buna qadağa qoymur. Qərb dünyəvi bioetikası qanuni olaraq evli cütlüklərdən birinin dünyasını dəyişməsi halında sperma və ya yumurtadan istifadə edilməsini düzgün hesab edir, halbuki İslamda bu qadağandır. İslam bioetikası cəmiyyət və insan münasibətləri üçün ən böyük rifahı və sabitliyi maksimum dərə-

cədə artırmaq üçün donor sperma və donor yumurtalarının istifadəsini qadağan edir. Embrion kök araşdırması Qərb dünyəvi bioetikası üçün mübahisəlidir, halbuki islam bioetikasında ehtiyat embrionlara icazə verilir.

İslam bioetikası hərtərəfli yaxşılığa önəm verdiyi halda, Qərbin dünyəvi bioetikası zahiri yaxşılığı hər şeydən üstün hesab edir. İslam baxımından donor süni mayalanma yaxşılığın dar bir anlayış olmadığını gözlər önünə sərir. İn vitro mayalanma ilə bağlı İslam bioetik fikirləri dinamik olmaqla yanaşı insan həyatına böyük dəyər verir, ailə bütövlüyünü qoruyur və sübut edir ki, uzunmüddətli xeyir həmişə cəmiyyətin və onun üzvlərinin rifahı və sabitliyi üçün arzuların müvəqqəti reallaşmasından üstün olmalıdır. Çünki məqsədlər vasitələri haqlı çıxarmır.

## Yeddinci Fəsil
## **Surroqatlıq: Qərb dünyəvi və islam bioetikası perspektivləri**

Surroqat sözü latın dilində olan *"surrogatus"* sözündədir, hərfi mənası "əvəz edən" deməkdir. Reproduksiya baxımından, sadəcə başqa bir qadın üçün uşaq dünyaya gətirən bir "qadına surroqat ana" deyilir. Surroqat analıq konsepsiyası, əslində, süni mayalanma və in vitro mayalanmanın əlavə bir formasıdır. Surroqat analıq şərtinə görə, qadın hamiləlik dövründə körpəni bətnində daşıyır və doğuşdan sonra uşağı başqa şəxsə təhvil verir. Bu zaman o, uşaq və ya onun ailəsi qarşısında bütün məsuliyyətlərindən azad olur. Surroqatlığın iki növü var: genetik (ənənəvi surroqatlıq) və gestasional surroqatlıq (hamiləlik daşıyıcısı). Genetik surroqatlıq öz yumurtası və nəzərdə tutulan ata sperma ilə mayalanmasını əhatə edir. Bunun əksinə olaraq, gestasional surroqatlıqda bir qadının yumurtalığı in vitro şəkildə bir kişinin sperması ilə döllənir və doğuşa qədər dölünü daşımağa hazır olan başqa qadının uşaqlığına yerləşdirilir.

İslam bioetikası bu təcrübəyə müsbət yanaşa bilməz, çünki surroqat analıq qadının bətnində yad elementdən – donor spermasından istifadənin aydın formasıdır. Şəriətin əsas məqsədi nəsli (*hifz ən-nəsl*) və ya soyu qorumaqdır. Surroqat analıq iki ana arasında mübahisəyə səbəb ola bilər: əsl ana kimdir, yumurta verən, yoxsa bətnində daşıyan? Əgər surroqat ana bətnini "icarəyə verərsə", uşağın atası ilə qanuni nikah bağı yoxdursa və ya onunla genetik əlaqəsi yoxdursa, bəs onda onu necə əsl ana hesab etmək olar? Bəs, yumurta donoru Qurani-Kərimdə qeyd edildiyi kimi uşağı daşımadığı halda, uşaq üzərində necə haqq sahibi ola bilər? Halbuki, Qurani-Kərimdə açıq şəkildə ifadə edilmişdir: "...onların anaları ancaq onları dünyaya gətirənlərdəndir..." (58:2).

Ümumiyyətlə, həm Qərb dünyəvi, həm də islam yanaşmaları ana və uşağın rifahı ilə əlaqədardır və cəmiyyətin yaxşılığını ortaya əsas məqsəd olaraq qoyur, ancaq onlar arasında fərqlər var. Məsələn, İslam əxlaqı əvvəlcə qadının bətninin daxili dəyərini müəyyənləşdirir və sonra onu cəmiyyətin – kənar mühitin düşüncəsinə əsaslanaraq "icarəyə götürməyin" mənəvi mahiyyətini əsaslandırır. İslam əxlaqı nəsli pozduğu üçün, istismara açıq olduğu və bununla da cəmiyyətə yaşana biləcək bir çox zərərli halın olduğunu bildiyinə görə surroqatlığı düzgün hesab etmir və ona mənfi baxır. Qərbin dünyəvi filosofları surroqat analığı belə bir fikrə əsaslanaraq tənqid edirlər ki, bu prosedur ailə bağlarının qorunmasının əksinə olaraq onu təhdid edir. Gələcəkdə bu prosedurun sosial nəticələri ağır ola bilər. Məsələn, bu proseduru keçmiş cütlük sonda boşana bilər, bu halda ata ayrı yaşayacağı üçün ananın körpə ilə heç bir bioloji əlaqəsi olmayacaq. Körpə sadəcə ata ilə bioloji bağa sahib olacaq.

Bundan əlavə, bəziləri surroqat analığı "kommersiya və ya ticari analıq" adlandırır. Hətta "körpə müqaviləsi" deyə bir anlayış da var, buna səbəb artıq surroqat analığın ticari bir işə çevrilməyidir. Başqa bir tərəfdən isə uşağın psixoloji travma alması

məsələsi var. Ola bilər ki, uşaq gələcəkdə surroqat analıq yolu ilə doğulduğunu öyrənməyə hazır olmaz və bu onda psixoloji sarsıntı yarada bilər. Bu cür mənfi halları görəndə başa düşülür ki, İslam bioetikası təkcə uşağın marağını və ya ondan mal kimi istifadə olunub-olunmamasını nəzərdə tutmur, eyni zamanda qadının bətninin şərəf və ləyaqətini qoruyur.

Fərqli fəlsəfi perspektivlərə və əxlaqa dair nisbi liberal baxışlara görə Qərb fəlsəfi sistemində surroqat ana ilə bağlı sabit və vahid qənaət mövcud deyil. Buna baxmayaraq surroqat analıq Qərbdə günü-gündən populyarlaşır. Qərbin dünyəvi bioetikası bu təcrübənin mənəvi dəyərini mühakimə etmək üçün müxtəlif arqumentlər (əsasən insan ləyaqəti, uşağa təsirlər, surroqata təsirlər, surroqatların maddi motivləri) irəli sürdüyü halda, İslam bioetikası şəriətin beş məqsədinə uyğun olaraq bu əməli pisləyir. Çünki İslam bu məsələni zina, ailə mirası, ögey qardaşların bir-birləri ilə evlənmə ehtimalı nöqteyi-nəzərindən dəyərləndirir. Nəticə etibarilə, surroqat analığın zərərləri onun faydalarından daha çoxdur.

## Səkkizinci fəsil
## **İnsanın klonlaşdırılması: Qərb dünyəvi və islam bioetikasının perspektivləri**

Klonlaşdırma yunan sözü olan “klwn” sözündən yaranıb, mənası “budaq”, “gövdə” deməkdir. 1996-cı ildə Doli adlı qoyunun uğurla klonlaşdırılmasından sonra bu sahəyə yaranan qlobal maraq qat-qat artdı. Klonlaşdırma demək olar ki, valideynləri ilə eyni genetik quruluşa malik bir insanın və ya heyvanlar aləmi üçün bir heyvanın yaradılması prosesidir. Klonlaşdırmanın əsasını Somatik Hüceyrə Nüvə Transferi texnikası təşkil edir. Somatik Hüceyrə Nüvə Transferi texnikasında somatik bir hüceyrənin nüvəsi, xüsusi şərtlər daxilində, bir nüvəli yumurta hüceyrəsinə (öz nüvəsi çıxarılmış) köçürülür. Somatik nüvə

daha sonra yumurtanın sitoplazmik faktorları ilə mayalanmış bir yumurta (zigot nüvəsi) olmaq üçün yenidən proqramlaşdırılır. Reproduktiv klonlama Somatik Hüceyrə Nüvə Transferi texnikasından əldə edilən blastosist, embrionun dölə çevrildiyi bətnə implantasiya edildikdə baş verir.

Köməkçi reproduktiv tibbin hazırkı üsulları yüksək uğura nail olmamışdır. Buna görə də bəzi övlad sahibi olmaq istəyən cütlüklər nəzəri olaraq klonlaşdırmaya meyllənirlər. Məsələn, insanın klonlaşdırılması kişi sonsuzluğu problemini həll edə bilər. Əgər ərin sperması hərəkətli deyilsə, bu halda qadın ancaq başqa kişi ilə evlənərək ata ilə genetik olaraq qohum uşağa hamilə qala bilər. Ancaq klonlaşdırma texnikasının tətbiqi ilə ər, bədəninin hər hansı bir hissəsindən alınan hüceyrədən əldə edilən DNT-ni həyat yoldaşının yumurta hüceyrəsi ilə birləşdirilə bilər. Yaranan embrion daha sonra qadının bətninə implantasiya edilir. Klonlama altında sperma ehtiyacı ortadan qalxdığı üçün kişi sonsuzluğu artıq problem olmaqdan çıxır. Bununla yanaşı, qadının artıq anonim bir donor sperminə olan ehtiyacı aradan qalxır. Bununla da, uşaq 100 faiz genetik olaraq dünyaya gəlir.

Klonlaşdırma qadın sonsuzluğuna da həll yolu hesab edilir. Burada iki növ problem ola bilər: yumurtalıq problemi və ya uşaqlıq problemi. Əgər qadının yumurtalıqlarında problem olarsa və ya uşaqlığı olmazsa, bu hal qadına problem yarada bilər. Əgər qadının yumurta hüceyrələri düzgün fəaliyyət göstərmirsə o, ərinin DNT-si ilə birləşdirmək üçün başqa bir qadının yumurta hüceyrəsindən istifadə edə bilər. Digər tərəfdən məsələyə baxdıqda, uşaq qarşı cinsin iştirakı olmadan da dünyaya gələ bilər.

İnsanın klonlaşdırılması uşaqların genetik xəstəliklərlə doğulması riskinin qarşısını alır. Bundan başqa, klonlaşdırma transplantasiya üçün donor tapmaq probleminə də həll yolu tapır. Başqa bir nümunə də göstərə bilərik ki, ölüm döşəyində-

ki bir insandan alınan genlərin klonlaşdırılması ilə həmin şəxsin tam surətinə bənzəyən bir körpə dünyaya gələ bilər. Hətta, övladını itirməkdən qorxan valideynlərə təsəlli belə ola bilər. Belə ki, uşaqların embrion klonları onların genetik əkizlərini yaratmaq üçün dondurulub saxlanıla bilər.

**İslam bioetikası və insan klonlaması**

Nəsil yetişdirməyin uyğun yolu qanuni evlənmiş cütlüyün cinsi yolla birləşməsindən dünyaya gələn körpələr hesab edilir. Burada uşaq həm atanın, həm də ananın genlərini daşıyır. İnsan klonlamasından fərqli olaraq tək hüceyrənin yaranmasına imkan verir. İslam alimlərinin əksəriyyəti aşağıdakı səbəblərə görə insanın klonlaşdırılmasını haram (qadağan) hesab edir:

a) Qanuni şəkildə qüvvədə olan nikahlı ər və arvadın sperma və yumurtanın birləşməsindən dünyaya gələcək uşaqlardan fərqli olaraq şəriət tərəfindən təsdiq edilmiş əsas nəsil konsepsiyasını pozur.

b) Mənfi təsirlərə əsasən də soyun pozulmasına, ailə münasibətlərinin qarışmasına, ictimai quruluşa və soydan asılı bir çox şəriət prinsiplərinin pozulmasına səbəb olur.

c) Klonlaşdırılmış insanların gələcəkdə tam funksiyalı bir vətəndaş olacağına dair heç bir zəmanət yoxdur (23).

**İnsan klonlaşdırması: Qərb sekulyar və islam bioetik perspektivləri**

Qərbin perspektivləri iki yerə bölünür: son dərəcə tənqidi yanaşanlar və insan klonlaşdırmasının lehinə çıxış edənlər. Bəzi tənqidçilər texnologiyanın klonlaşdırılmasının səbəb olduğu mürəkkəb əlaqələrdən narahatlıq hissi duyur. Digərləri klonlaşdırmanın ailə münasibətləri və ailə harmoniyası üçün böyük bir təhlükə olduğuna inanır. İslam bioetikası isə bununla bağlı mənfi mövqe tutur. Qərb dünyəvi bioetikasına görə, insan psixologiyası insan klonlamasını dəstəkləyə bilməz. Hər bir insan təbii olaraq öz mənşəyi və tarixi ilə maraqlanır. Bununla belə, başqaları iddia edir ki, insanın klonlaşdırılması fərdi unikallığın (fitrətin) pozulması təhlükələrinə görə tənqid edil-

məməlidir. Bəziləri insan klonlamasının insanlara insanlardan çox, obyekt kimi baxdığını iddia edir. Başqa sözlə desək, insan klonlaşdırması ilə insanın dəyəri azalır, çünki istənilən surətdə insanoğlunun yaradılması prosesi asanlaşır. Digərləri, bir varlığın layiq olmasının onun necə yaradıldığına deyil, mahiyyətinə bağlılığını iddia edirlər. İslam bioetikasının insanın klonlaşdırmasını düzgün hesab etməməsinin əsas səbəbi klonlaşdırmanın Qurani-Kərimdə bəhs edilən cüt-cüt yaratma nümunəsi ilə ziddiyyət təşkil etməsidir (bax: 51:49)

"Zərər verməyin" prinsipi Qərb bioetikasının mühüm prinsiplərindəndir. Tənqidçilər insanın klonlaşdırmasının bu prinsipi təmin edə biləcəyinə şübhə ilə yanaşırlar. Qısacası, Qərbin dünyəvi bioetikası hələ də insan klonlama texnologiyasının etik yolverilməzliyi ilə bağlı qəti qərar verməzdən əvvəl onun fərqli cəhətlərini araşdırır və bu mövzuda geniş müzakirələr aparır. Digər tərəfdən, İslam bioetikasında bu texnikanın icazə verilə biləcəyi mübahisəli olsa da, lakin alimlərin əksəriyyəti hələ də bu barədə mənfi fikrə sahibdir.

## Doqquzuncu Fəsil
## **Köməkçi Reproduktiv Texnologiya ilə əlaqədar Qərbin dünyəvi və İslam bioetikasının perspektivləri: Ümumi müqayisə**

Bu fəsildə Qərbin dünyəvi və İslamın etik nöqteyi-nəzərindən Köməkçi Reproduktiv Texnologiyanın müqayisəli tədqiqi və onların fəlsəfi variasiyasına geniş yer verilmişdir. Bioetika istər İslam olsun, istər Qərb olsun, əslində, mahiyyət etibarilə etika ilə əlaqədardır və buna görə də hər iki perspektiv həyat və ölüm məsələlərinin həllində bəzi etik qaydalara riayət etməkdə həmfikirdir. Aralarındakı əsas fərq onların epistemoloji təməlində, eləcə də metafizik səviyyəsində mövcuddur.

Bioetikanın əsası Qərbdə qoyulduğu üçün Qərbin əxlaqi prinsiplərini və ənənələrini əks etdirir, yəni bu prinsiplər dünyanın qalan hissəsinin sosial-mədəni reallıqlarına yad ola bilər. Epistemoloji cəhətdən Qərb dünyəvi bioetikası əxlaq standartı kimi fərdlərə müraciət edir. İslam bioetikası isə ilahi bir Yaradanı, yəni tək olan uca Allahı əsas götürür.

Xeyirxahlıq təkcə Qərb dünyəvi bioetikasının deyil, həm də İslam bioetikasının bir vasitəsidir. Tibbi kontekstdə xeyirxahlığın təsiri İslam bioetikasında daha çox aydındır. Məsələn, həkimlər istənilən vəziyyətdən asılı olmayaraq xəstənin həmişə yaxşı olduğunu bildirirlər. Ancaq "yaxşı" ifadəsini şərh edərkən Qərbin dünyəvi bioetikası ilə İslam bioetikası arasında insanı təəccübləndirəcək qədər böyük bir fərq yaranır. Ümumi mənfəət utilitarizm tərəfindən "bütün insanlar üçün ən böyük yaxşılıq" kimi təyin edilir, lakin İslam etikası yemək, su, geyim, mənzil və yoldaşlıq kimi bütün insanlara ortaq yaxşılıqdan imtina edir.

Bioetikada digər vacib sual budur: kim qərar verir? İslam bioetikası fərdi azadlıq və müstəqilliyə hörmətlə yanaşsa da, onun Qərb dünyəvi bioetikası ilə bunu necə qəbul etməsi arasında fərq var. Belə ki, İslamın azadlıq anlayışı nisbi, Qərbin dünyəvi azadlıq anlayışı isə mütləqdir. Çünki İslam insanın şüurunun aləmlərin rəbbi olan Allahı tanımasına əsaslandığını bildirir. Allaha iman insan anlayışının əsas mənbəyi hesab edilir.

Başqa sözlə desək, bir cəmiyyət fərddən deyil, ahəngdar bir kainat üçün makro nəzərin əsasına çevrilən ailə birliyindən başlayır. Əslində, İslam etikasında fərdin həyatının mərkəzi fərdin özü deyil, onun ailəsidir. Kişi sosial quruluşun bir üzvüdür. Məsələn, bir cütlüyə sonsuzluq diaqnozu qoyulduqda, Köməkçi Reproduktiv Texnologiyanın olub-olmamasından asılı olmayaraq növbəti addımı atmaq üçün ər və arvad bir-birləri ilə məsləhətləşməlidir və bu qərar fərdi o deyil, ortaq bir qərar kimi qəbul etməlidirlər. Bundan əlavə olaraq, qərar şəriət qaydalarına uyğun olmalıdır, çünki fərd sadəcə bir şəxs demək deyil, eyni zamanda böyük cəmiyyətin parçasıdır.

Digər tərəfdən isə meyityarma və orqan transplantasiyası ilə sperma alınması arasında fərq var. Meyityarmaya və ya orqan transplantasiyasına razılıq vermək insanların xeyrinədir, lakin burada mərhumun razılığı olmadan (amma ailə üzvlərinin razılığı ilə) vəfat etdikdən sonra sperma toplanması tələbi başqadır. İslamda bir şəxsin meyitindən digər şəxsin bədəninə orqan köçürülməsinə icazə verilir, bir şərtlə ki, ölən şəxsin ölümündən əvvəl icazə alınsın. Ancaq hüquq anlayışı öhdəliklər ideyasını da əhatə edir, çünki hüquqlar olan yerdə öhdəliklər də var. Bu öhdəliklər həyat yoldaşının, valideynlərin, qohumların, uşaqların, daha geniş spektrdə isə cəmiyyətin və dövlətin öhdəlikləri ola bilər. Qərb dünyəvi bioetikası insanlara mütləq azadlıq versə də, İslam bioetikası bütün subyektləri uca Allahın insanoğluna qoyulan tələbləri əsasında qiymətləndirir.

Bu iki perspektiv arasındakı fərq fəlsəfi araşdırmanın mahiyyəti ilə bağlı köklü uyğunsuzluq yaradır. Qərbin dünyəvi bioetikası sistematik arqumentasiya və nəzəriyyə ilə məşğul olduğu halda, İslam bioetikası aşkar xarakter daşıyır. Bu səbəblə müsəlmanlar özləri hər vəziyyəti dərindən düşünməli və Qurani-Kərimi necə başa düşdüklərini və ya şərh etdiklərini özlərinə sual verməlidir. Bundan əlavə, müxtəlif mədəniyyətlər və sivilizasiyalarda olduğu kimi, bir-birindən uzaqlaşma, rəqabət və münaqişə tipli məsələlər qarşılıqlı anlaşma yolu ilə öz həllini tapmalıdır.

## Onuncu Fəsil
## **Əlavə bir neçə cümlə...**

Tibdə bioetikanın tətbiqi zamanı ortaya çıxan bir çox problemin və çətinliyin öhdəsindən gəlmək üçün tibbi etikaya ehtiyac olduğunu görürük. Bioetika nəzəriyyəsi kimi deontologiya bir hərəkətin əsas düzgün və ya yanlışlığının situasiyadan və ya nəticələrdən deyil, onun daxili təbiətindən asılı olduğu ideyasını müdafiə edir. Donor süni mayalanmanın qəbul edilmə-

sinə gəldikdə, İslam bioetikası nəinki zinanın qarşısını almaq və soyu qorumaq, həm də insan cinsi əlaqələrinin təmizliyini qorumaq üçün donor spermasından istifadəni qəti şəkildə qadağan edir. Əgər belə bir şeyə yol verilərsə bunun fəsadları həm uşağa, həm valideynə, həm də daha geniş kütlələrə toxunar. Burada fayda və ya zərərdən asılı olmayaraq, bir hərəkətin düzgünlüyünə xüsusi diqqət ayrılır.

Konvensionalizm bir əməlin nəticələrinə mənəvi əhəmiyyət verir. Bu düşüncəyə əsasən, hər hansı bir əməlin nəticəsi faydalı olduğu təqdirdə mənəvi cəhətdən doğru sayılır. Bununla belə, İslam bioetikası nəticələrə və onun inkişafına da əhəmiyyət verir. İslam bioetikası Donor süni mayalanmanın (yəni doğulan körpələrin) birbaşa faydalarına baxmaq əvəzinə, bir cütlüyə uzunmüddətli faydanın verilməsinin tərəfdarıdır. Yəni, islam bioetikası hər kəsin rifahını və cəmiyyətin güclü müdafiəsini hər şeydən üstün tutur. Deməli, islam bioetikasının tədrisi geniş perspektivdən asılıdır.

Qərb dünyəvi bioetikası eyni şəkildə ailə bağlarının zəifləməsinin və uşaqların, valideynlərin və hətta sperma donorlarının gələcəyini düşünür. Lakin islam bioetikası evlilik bağının təmiz olmasının, uşaqlar üçün psixoloji riskin, miras problemlərinin, cəmiyyət üçün potensial xaosun və digər fəsadların qarşısının alınmasına çalışır.

Embrion kök hüceyrə araşdırmaları mövzusunu müzakirə edərkən həm İslam, həm də Qərb dünyəvi bioetikasının faydalarını görürük. Surroqat analığa gəldikdə isə İslam bioetikasında bunun qadağan olduğunu bilirik. Qərb dünyəvi bioetikası İslam bioetikasından fərqli olaraq nisbi anlayışdır. İnsanların klonlaşdırılması ilə əlaqədar olaraq, Qərbin dünyəvi bioetik görünüşü klonlaşdırmanın həm leyhinə, həm də əleyhinədir. Lakin islam bioetikləri insanları klonlaşdırmanın qəti əleyhinədir və bunun Allah yoluna zidd olaraq qeyri-təbii bir çoxalma üsulu olduğunu düşünürlər.

Köməkçi reproduktiv tiblə əlaqədar olaraq Qərb dünyəvi bioetikası ilə İslam bioetikası fəlsəfi baxımdan gah üst-üstə düşür, gah da bir-birləri ilə ziddiyyət təşkil edir. Çünki İslam modeli Qərb perspektivinin və onun dünyəvi utilitarizminin hökmranlığından kənara çıxan, Vəhy və mənəvi anlayışa üstünlük verən aydın bir alternativ təqdim edir.

## Müəllif

**Şərmin İslam** Banqladeşin Şimali Universitetinin Ümumi Təhsil Departamentində dosentdir.

# Ədəbiyyat siyahısı


1 P.D.Simmons, Birth and Death: Bioethical Decision Making (Philadelphia: The Westminster Press, 1983), p.157.

2 E.S.Teoh, İnfertility: Finding the Right Solution (Singapore: Times Books International, 1987), p.15.

3. For the nature of ethical reasoning, please see J. Ladd, "The Task of Ethics", W.T Reich (ed.), Encyclopedia of Philosophy (NY: The Free Press, 1978), vol. 1, pp. 400-7; and for methods of ethical reasoning, please refer to H. Brody, Ethical Decisions in Medicine (Boston: Little, Brown & Company, 1976), pp.5-27

4. T.A.Mappes and D. DeGrazia, (ed.), "General Introduction", Biomedical Ethics, 5th edn., (NY: McGraw-Hill, 2001), pp.1-55.

5. W.T.Reich, "Introduction", Encyclopedia of Philosophy, p.xix.

6. R.DeVries, "How Can We Help? From "Sociology in" to "Sociology of" Bioethics", The Journal of Law, Medicine & Ethics, 2004, vol. 32, no. 2, pp.279-92.

7. W.Frankena, Ethics, 2nd edn., (Engelwood Cliffs, NJ: Prentice-Hall, 1973), p.47.

8. S. M.Al-Attas, Islam and Secularism (Kuala Lumpur: Art Printing Works Sdn. Bhd. 1978), p.14.

9. A.A.Maududi, "The Islamic Concept of Life" (2006), [Online. Accessed 22 March, 2006]. http://www.islam101.com/sociology/ conceptLife.htm.

10. O.H.Kasule, "Medical Jurisprudence Between Originality and Modernity. Proceedings of the 5th Scientific Meeting of the Islamic Medical Association of Malaysia", Penang, May 28-29, 2004.

11. H.Kamali, Principles of Islamic Jurisprudence (Selangor Darul Ehsan: Pelanduk Publications (M) Sdn Bhd. 1989), pp.310-11.

12. Ibid., p.313.

13. Ibid., pp.380-85.

14. A.A.A. Yacoub, The Fiqh of Medicine (London: Ta-Ha Publishers Ltd, 2001), p.43.

15. I. A.Khan, "Islamic Research in Philosophy: Issues and Problems", M.Muqim, (ed.), Research Methodology in İslamic Perspective (Kuala Lumpur: Synergy Book İnternational, 1999), pp.117-127.

16. Anonymous, "Reproductive Technologies", S.G.Post, (ed.), Bioethics for Students: How Do We Know What's Right? Issues in Medicine, Animal Rights and the Environment (New York: Macmillan, 1999), vol. 1, pp.177-99.

17. R.Munson, "Reproductive Control: In Vitro Fertilization, Artificial Insemination and Surrogate Pregnancy", R. Munson, (ed.), Intervention and Reflection: Basic Issues in Medical Ethics, 5th edn., (Stamford: Wadsworth, 1996), pp.489-551.

18. Anonymous, "Artificial Insemination from an Islamic Perspective," (2005), [Online. Accessed 26 May 2005]. http://islamonline.net/fatwa/english/FatwaDisplay.asp?hFatwaID=76500.

19. Yusuf al-Qaradawi, The Lawful and The Prohibited in Islam. Translation by K. El-Helbawy, M. M. Siddiqui, S. Shukry, (Kuala Lumpur: Islamic Book Trust, 2001), p.170.

20. R. Munson, 1996, pp. 489-551.

21. Anonymous. OIC Resolution (2006), [Online. Accessed 15th October 2006]. http://www.islamibankbd.com/page/oicres.htm.

22. İbid.

23. Mishal, A. A., "Cloning and Advances in Molecular Biotechnology: Islamic Shariah Guidelines", H.E. Fadel, (ed.), FIMA Year Book 2002 (Islamabad: Federation of Islamic Medical Associations in collaboration with Medico İslamic Research Council (MIRC) Islamic international Medical College, 2002), pp.33-47.

**Beynəlxalq İslam Fikri İnstitutu (BİFİ)** öz oxucularına orijinal mətnin əsas məzmununu əks etdirən **müxtəsər kitablar seriyası** təqdim edir.

**Köməkçi reproduktiv tibb etikası** son dövrlərdə şöhrət qazanan genetika, qabaqcıl tibb və tibbi etikası ilə bağlı məsələləri tədqiq edir və Qərb və İslam bioetik modellərini bir-biri ilə qarşılıqlı şəkildə müqayisə edir. Tibdə günü-gündən qeyd edilən irəliləyişlər həyatın necə formalaşdığına dair anlayışlarımızı tədricən dəyişir. Buna görə də, tibb dünyasında genetika və reproduktiv sistemlə əlaqəli problemləri həll etmək üçün tibbi etikaya ehtiyac duyulur. Müasir tibdəki inkişaflar (mübahisəli kök hüceyrə araşdırması, insan klonlaşdırılması və həyatı sona çatdırmaq hüququ) potensial zərərli tətbiqlərin sağlamlıq siyasəti vasitəsi ilə praktikada reallaşdırılmasına səbəb ola biləcəyi üçün çox böyük əhəmiyyət kəsb edir. Ən çox verilən suallar arasında isə "Etika nədir, nə işə yarayır? Kim nəyə əsaslanaraq qərar verir?" kimi maraq doğuran məsələlər yer alır.

Tibb mütəxəssislərinin qarşısında duran və teoloji perspektiv tələb edən ciddi mənəvi dilemmalar da burada olduqca vacibdir. Bununla belə, insan həyatını təşkil edən amilləri müəyyənləşdirən də, hamımızı maraqlandıran və ciddi ictimai təsirə malik ola biləcək məsələlərdə siyasətə təsir edə bilən də məhz elə dünyəvi bioetikadır. Bir qadının öz doğma bacısı üçün surroqat analıq etməsi nə dərəcədə doğrudur? Əgər cütlük övlad sahibi ola bilmirsə, başqa donordan istifadə etməklə süni mayalanmaya müraciət etməlidirmi? Bəs islam bu haqda nə deyir? İnsan klonlaşdırması, surroqat analıq və in vitro mayalanma günümüzdə ən çox mübahisəyə səbəb olan mövzulardandır. Müəllif bu məsələlərin hər birini ayrı-ayrılıqda müqayisəli şəkildə təhlil edir.

Bu araşdırma (Quran və Sünnədən götürülən) İslam perspektivinin Vəhy və mənəvi anlayışa üstünlük vermək üçün dünyəvi və onun müxtəlif fəlsəfi əsaslarının diktəsindən kənara çıxan canlı və aydın bir alternativ təqdim etdiyini göstərir. Bununla yanaşı "nəyin ən yaxşı olduğuna" qərar verməyi çətinləşdirən qarışıq fikirlərin aradan qaldırılmasına da çıxış yolu göstərir. İnsan bədənini ruhdan, şüurdan və ağıldan deyil, hüceyrədən, orqandan və beyindən daha üstün qəbul edən dünyəvi bir anlayışa da meydan oxuyur.

Beynəlxalq İslam
Fikri İnstitutu

9 789952 844566